# ŞAİRLƏR VƏTƏNİ ABADLAŞIR

***Şuşanı çox haqlı olaraq Azərbaycanın musiqi Konservatoriyası hesab edirlər. Azərbaycanda musiqiçilərin, xanəndələrin, "Xarı bülbüllərin" vətəni Qarabağ torpağıdırsa, Odlar yurdunun Qərb qapısı sayılan, strateji əhəmiyyətli qədim tarixə və zəngin keçmişə malik Qazax rayonu isə şerin-sənətin, sazın-sözün beşiyi, şairlərin vətənidir.***

Qazax torpağı elm, maarif, mədəniyyət, incəsənət, ədəbiyyat, hərb sahəsində adlı-sanlı, şanlı-şöhrətli korifey şəxsiyyətlər - şairlər, yazıçılar, alimlər, pedaqoqlar, sərkərdələr, qəhrəmanlar, pəhləvanlar yetişdirmişdir.

Dünyanın nadir təfəkkür sahiblərindən olan, fenomenal şəxsiyyət, dahi siyasətçi, əbədiyaşar prezidentimiz Heydər Əliyev vaxtı ilə haqlı olaraq Qazax rayonunun Azərbaycanın iqtisadiyyatında və mədəniyyətində layiqli yer tutduğunu dəyərləndirmişdir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə həmişə mədəniyyətə, incəsənətə, sənətə və sənət adamlarına yüksək qiymət vermiş, qayğı və diqqət göstərmişdir. Bu gün onun layiqli varisi, möhtərəm prezidentimiz cənab İlham Əliyev dövlətçilik ənənələrini uğurla davam etdirir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da mədəniyyətimizin inkişafına, klassik muğamlarımızın, mədəni irsin qorunub saxlanmasına xüsusi qayğı və diqqət göstərir.

Bu gün Azərbaycan sosial-iqtisadi cəhətdən inkişaf yollarındadır, respublikamız gündən-günə inkişaf edir. Bakı şəhərindən tutmuş regionlarda, kənd və qəsəbələrdə geniş miqyasda tikinti-abadlıq, mədəni-quruculuq işləri aparılır.

"Azərbaycan Respublikası Regionlarının sosial iqtisadi inkişafı haqqında Dövlət Proqramı (2004-2008-ci illər) Qazax rayonunda uğurla yerinə yetirilir. Qazax şəhəri sanki yenidən qurulur. Bu gün rayonumuz sözün əsl mənasında tikinti meydançasını xatırladır. Rauf Hüseynovun Qazax Rayon İcra Hakimiyyəti başçısı təyin olunduğu az vaxt ərzində rayonumuz demək olar ki, öz simasını gündən-günə dəyişir.

Ağstafaçay üzərində 130 metr uzunluğunda, 13 metr enində Beynəlxalq standartlara cavab verən körpü rayon sakinlərinin istifadəsinə verilmiş, körpünün açılışında cənab prezidentimiz İlham Əliyev iştirak etmiş, qırmızı lenti şəxsən özü kəsmişdir.

Qazaxda mədəniyyət sahəsində xeyli abadlıq və təmir-tikinti işləri aparılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin şərəfinə istirahət parkı salınmış və burada ulu öndərin qranitdən hazırlanmış əzəmətli heykəli ucaldılmışdır.

Səməd Vurğun adına Qazax rayon mədəniyyət sarayı dünya standartlarına uyğun ən yüksək səviyyədə əsaslı təmir edilmiş və yeni avadanlıqlarla təchiz edilmişdir. Qazax şəhərində Dövlət Rəsm Qalareyası binası tam və əsaslı təmir edilmiş, müasir avadanlıqlarla təmin olunmuşdur. Qazax şəhərinin mərkəzində Qazaxdan olan mütəfəkkirlərin şərəfinə "Mütəfəkkirlər bağı" salınmış və bağda fəvvarə kompleksi yaradılmışdır. Azərbaycan elmində, ədəbiyyatında, mədəniyyətində, incəsənətində, hərb tarixində xüsusi xidmətləri olmuş 12 nəfər qazaxlının büstləri həmin bağda ucaldılmışdır.

Azərbaycanın milli iftixarı, sənət peyğəmbərimiz sevimli xalq şairimiz Səməd Vurğunun anadan olmasının 70 illiyi ilə əlaqədar Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin göstərişi ilə şairin anadan olduğu Yuxarı Salahlı kəndində 1975-ci ildə inşa edilmiş "Poeziya evi" ölkə prezidenti İlham Əliyevin göstərişinə əsasən şairin 100 illik yubileyi münasibəti ilə yenidən əsaslı təmir edilmiş, mebel dəstləri və kompüterlə təmin olunmuşdur.

Qazax şəhərinin girişində 12 metr hündürlükdə postament üzərində "Dilboz atın" heykəli qoyulmuşdur. Şəhərdə Dədə Qorqud meydanı salınmış və meydanda Dədə Qorqudun 9 metr hündürlüyündə heykəli, "Kitabi-Dədə Qorqud" dastanının 12 boyunu əks etdirən 60 metr uzunluğu, 3 metr hündürlüyü olan 12 barelyef qoyulmuşdur. Həmin ərazidə Qala bürcü, milli arxitektura ənənələrinə uyğun tağlı divarlar və dayanacaqlar tikilmişdir.

Rayon mədəniyyət və turizm şöbəsi nəzdində elektron kitabxana yaradılmış və bu məqsədlə 10 dəst kompüter quraşdırılmışdır.

Rayonun bir sıra kənd mədəniyyət evlərində, klublarında, kitabxanalarında əsaslı təmir işləri aparılmışdır.

Qazaxda dünya standartlarına cavab verəcək Olimpiya İdman Kompleksinin inşaası davam etdirilir.

Azərbaycan Respublikası prezidenti İ.Əliyevin göstərişinə əsasən Qazax şəhərində yeni "Müalicə Diaqnostika Mərkəzi"nin tikintisinə başlanmışdır. Anaların istirahəti və uşaqların əylənməsi üçün şəhərin mərkəzində "Ana və uşaq" parkının tikintisi davam edir.

Mədəniyyət və istirahət parklarının yenidən qurulması və bərpa olunması, qədim abidələrin yenidən bərpası, müasir tipli məktəblərin, xəstəxanaların tikilməsi və təmir edilməsi əhali tərəfindən çox razılıqla qarşılanır.

Qazaxda abadlıq, təmir-tikinti, mədəni quruculuq işləri davam edir. Vidadinin, Vaqifin, Vurğunun vətəni gün-gündən öz simasını dəyişir, yeniləşir və gözəlləşir.

Bu abadlıq Qazağın işıqlı gələcəyindən, insanların xoş güzaranından xəbər verir.

**_Kazım KAZIMLI,_**
**_Azərbaycan Jurnalistlər Birliyinin üzvü_**